**Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.**

**Heydər Əliyev.**



# GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 9 (9217) | 17 may 2016-cı il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 40 qəpik

## 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 1941-1945-ci illər İkinci Dünya müharibəsində Qələbənin 71-ci ildönümü ilə əlaqədar **qərara alıram:**

**1.** 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına 1000,0 (min) manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500,0 (beş yüz) manat məbləğində birdəfəlik maddi yardım verilsin.

**2.** Bu Sərəncamın 1-ci hissəsinin icrası məqsədi ilə:

**2.1.** Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 9,0 (doqquz) milyon manat ayrılsın;

**2.2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həmin vəsaitin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi hesabına köçürülməsini təmin etsin;

**2.3.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik maddi yardımın bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş şəxslərə çatdırılmasını təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 20 aprel 2016-cı il.*

## Azərbaycan Dövlət Pedaqoji Universitetinin Qazax və Zaqatala filialları barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Regionların sosial-iqtisadi inkişafı üçün yüksək ixtisaslı kadrlara tələbatı təmin etmək, bölgələrdə yaşayan gənclərin seçdikləri ixtisaslar üzrə keyfiyyətli ali təhsilə çıxış imkanlarını genişləndirmək, eləcə də ali təhsil müəssisələrinin mövcud maddi-texniki və kadr potensialından istifadənin səmərəliliyini artırmaq məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2016-cı il iyul ayının 1-dən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Qazax filialı Bakı Dövlət Universitetinin Qazax filialı, Zaqatala filialı isə Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialı hesab edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**2.1.** Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**2.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını bir ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.4.** bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**4.** Azərbaycan Respublikasının Təhsil Nazirliyi Bakı Dövlət Universitetinin Qazax filialında və Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialında 2016-2017-ci tədris ilindən kadr hazırlığı aparılacaq ixtisasların siyahısını müəyyənləşdirsin və tədris prosesinin təşkili üçün zəruri tədbirlərin görülməsini təmin etsin.

**5.** Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsi Bakı Dövlət Universitetinin Qazax filialına və Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialına 2016-2017-ci tədris ili üçün qəbul imtahanlarının keçirilməsini təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 aprel 2016-cı il.*

## 2016-cı il üçün Qazax rayon İcra Hakimiyyəti Başçısının aparatında vətəndaşların qəbulu cədvəli

| S/№-si | Qəbul edən şəxs | Tutduğu vəzifə | Qəbul günləri | Qəbul vaxtı |
|---|---|---|---|---|
| 1. | Əsgərov Ayaz Nəriman oğlu | Rayon İcra Hakimiyyətinin Başçısı | Hər həftənin V günü | $10^{00}$-dan |
| 2. | Nağdalıyev Fərman Məmməd oğlu | Rayon İcra Hakimiyyəti Başçısının birinci müavini | Hər həftənin I günü | $10^{00}$-dan |
| 3. | Musayev Tahir Xaliddin oğlu | Rayon İcra Hakimiyyəti Başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Hər həftənin II günü | $10^{00}$-dan |
| 4. | Həsənova Gulaya Ziyad qızı | Rayon İcra Hakimiyyəti Başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Hər həftənin III günü | $10^{00}$-dan |
| 5. | Abışov Gündüz Fəxrəddin oğlu<br>Alıyev Məmməd Oruc oğlu<br>Həsənov Mehdi Alı oğlu | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri<br>Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri<br>Memarlıq və tikinti şöbəsinin müdiri | Hər həftənin IV günü | $10^{00}$-dan |

***Qeyd:***

**1. Milli qəhrəmanlar və onların ailələri, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri digər imtiyazlı vətəndaşlar müraciət etdikdə dərhal qəbul edilirlər.**

**2. Rayon İcra Hakimiyyəti başçısının qəbul günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.**

**3. Vətəndaşların qəbulu ilə bağlı əlaqə telefonları :**
**022) 295-31-55; (022) 295-23-35; qaynar xətt (022)295-56-70**

# Prezident İlham Əliyev Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib



**Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü günüdür. Artıq 13-cü ildir ki, qədirbilən Azərbaycan xalqı, bütün dünyada Heydər Əliyevi tanıyanlar və sevənlər dahi şəxsiyyətin doğum gününü onsuz qeyd edirlər.**

Ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü Azərbaycanın hər yerində olduğu kimi, dünya ölkələrində də geniş qeyd edilir. Ölkəmizin bütün bölgələrində bu əlamətdar gün - Azərbaycan xalqının xilaskarı, müasir müstəqil dövlətimizin banisi, respublikamızı sarsılmaz, dönməz yüksəliş yoluna çıxarmış əbədi inkişaf strategiyasının müəllifi ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə silsilə təbirlər keçirilir, dahi şəxsiyyətin Vətən və dövlət qarşısındakı xidmətləri yad olunur. Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, eləcə də diasporumuzun təmsilçiləri də ümummilli lider Heydər Əliyevin doğum günü münasibətilə silsilə tədbirlər keçirərək görkəmli siyasi xadimin zəngin və çoxşaxəli fəaliyyətini, Vətən və xalq qarşısındakı xidmətlərini geniş təbliğ edirlər.

Hər il xalqımızın xilaskar oğlunun doğum günündə olduğu kimi, bu il mayın 10-da da səhər tezdən respublika ictimaiyyətinin nümayəndələri, ölkəmizin müxtəlif rayon və şəhərlərindən Bakıya gəlmiş insanlar, Azərbaycan paytaxtının qonaqları axın-axın Fəxri xiyabana üz tutur, ulu öndər Heydər Əliyevin məzarı önünə əklillər, təzə-tər güllər qoyur, onun əziz xatirəsini dərin ehtiramla yad edir, ruhuna dua oxuyurlar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ailə üzvləri, Ulu Öndərin doğmaları xalqımızın xilaskar oğlunun doğum günündə onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.

Burada fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, onun xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Sonra dövlətimizin başçısı və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoydular.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak edirdilər.

# Ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağacəkmə kampaniyası

## Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə iştirak edib

**Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Zığ-Heydər Əliyev Beynəlxalq Aeroportu magistral avtomobil yolunun 29-30-cu kilometrliyində salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağacəkmə kampaniyasında iştirak ediblər.**



Dövlətimizin başçısı və xanımı əvvəlcə Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində görülən işlərlə bağlı məlumatları əks etdirən stendlərlə tanış oldular.

Ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov Prezident İlham Əliyevə nazirlik tərəfindən 2008-2016-cı illər ərzində salınmış və damcılı suvarma sistemi ilə təchiz edilmiş yaşıllıqlar barədə məlumat verdi. Bildirildi ki, həmin müddətdə Bakı-Şamaxı magistral avtomobil yolunun ətrafında 622 mindən, Bayıl yamacında 463 mindən artıq, Bakı-Qazax magistral avtomobil yolunun Ələt-Hacıqabul hissəsində 1 milyon 600 minə yaxın, Bakı-Quba magistral avtomobil yolunun ətrafında 680 mindən çox, Bakı-Astara magistral avtomobil yolunun Ələt-Salyan hissəsində 500 minə yaxın ağac əkilib. Beləliklə, 2008-2016-cı illərdə respublika ərazisində nazirlik tərəfindən sahəsi 3776 hektar, uzunluğu isə 190 kilometr olan ərazidə ümumilikdə 4 milyon 826 mindən çox ağac əkilərək onlara zəruri aqrotexniki qulluq göstərilib.

Qeyd olunub ki, yaşıllıqlar salınarkən zeytun ağaclarına daha çox üstünlük verilib. Buna görə də hazırda bu ağacların əkildiyi sahələr son yüz ildə Azərbaycanda salınmış zeytun bağlarının sahəsindən üç dəfə çoxdur. Əkilmiş zeytun ağaclarının sayı isə artıq 1 milyon 268 mini keçib. Son səkkiz ildə nazirlik tərəfindən yaşıllıq sahələrinə 11 min kilometr uzunluğunda damcılı suvarma xətləri çəkilib.

Dövlətimizin başçısına məlumat verildi ki, indiyədək Zığ-Heydər Əliyev Beynəlxalq Aeroportu magistral avtomobil yolunun ətrafında ümumi sahəsi 969 hektar, uzunluğu isə 20 kilometr olan ərazidə 58 növdə bir milyondan artıq ağac əkilib. Onların arasında zeytun, Eldar şamı, sərv, tuya, oleandr, Arizona sərvi, akasiya, göyrüş, lələk, tut, nar, badam, sarağan, meliya və digər ağac növləri var.

Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva ərazidə ağac əkdilər.

Dövlətimizin başçısı və xanımı ağacəkmə kampaniyasının iştirakçıları ilə xatirə şəkilləri çəkdirdilər.

Ərazisi 12 hektar olan bu yaşıllıq sahəsində mayın 10-da ümumilikdə 10 minə yaxın zeytun, Eldar şamı, sərv, Arizona sərvi, mavi küknar, limon sərvi, leylandi ağacları əkildi.

Qeyd edək ki, hazırda ölkə ərazisində ətraf mühitin sağlamlaşdırılması ilə bağlı ekoloji tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Prezident İlham Əliyevin Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair imzaladığı sənədlər bu sahədə mühüm nailiyyətlər əldə etmək üçün hərtərəfli şərait yaradıb. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətində də ölkəmizdə yaşıllıqların artırılmasına, mövcud yaşıllıq sahələrinin qorunmasına xüsusi diqqət yetirilir. Bu məsələdə Fondun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən layihələrin də mühüm rolu var.



# Çernobıl əlilləri ilə görüş

**Qazax rayon İcra Hakimiyyətində Çernobıl qəzasının 30-cu ildönümü ilə əlaqədar qəzanın aradan qaldırılmasının iştirakçıları olmuş rayon sakinləri ilə görüş keçirilmişdir.**

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov tədbiri giriş sözü ilə açmış və Çernobıl faciəsi ilə bağlı məlumat verərək bildirmişdir ki, 26 aprel 1986-cı il tarixdə Ukraynanın paytaxtı Kiyev şəhəri yaxınlığında yerləşən Çernobıl AES-da baş vermiş güclü nüvə partlayışından 30 il ötür. Partlayış nəticəsində çox təhlükəli radioaktiv şüalanma minlərlə kilometr məsafəni öz təsiri altına alaraq ətrafı radioaktiv tullantılarla çirkləndirmişdir.

Qəzanın aradan qaldırılmasına SSRİ-nin hər yerindən on minlərlə insan cəlb edilmişdir. Nəticədə qəzanın aradan qaldırılmasında iştirak edən çox sayda adam ilk günlərdən güclü şüalanmaya məruz qalmışdır. Qəzanın aradan qaldırılmasının ilk iki ilində 650 min insan xilasetmə işlərinə cəlb edilmiş, rəsmi məlumatlara görə onların 15 mini bir neçə ildən sonra dünyasını dəyişmişdir. Xilasetmə işlərində çalışan 500-550 min adam isə ağır xəstəliklərə tutulmuşdur. Onların bir hissəsi artıq dünyasını dəyişmiş, digər hissəsi isə şüalanmanın fəsadlarını ağır şəkildə yaşamaqdadırlar.

Bəşəriyyət üçün böyük bir bəla olan bu fəlakətin qarşısının alınmasında 7000 nəfərdən çox azərbaycanlı xüsusi xidmət göstərmişdi. SSRİ-nin keçmiş respublikalarından fərqli olaraq Azərbaycanda Çernobıl qəzasının ləğvində iştirak edən şəxslər unudulmamışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev və onun layiqli davamçısı İlham Əliyev tərəfindən bu dəhşətli fəlakətin ləğvində iştirak edən vətəndaşlarımız və onların ailə üzvləri lazım olan diqqət və qayğı ilə əhatə olunmuşlar. Son illər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısı sayəsində Çernobıl faciəsinin ildönümləri qeyd edilmiş, faciə qurbanlarının xatirəsi yad olunmuş, onların ailə üzvləri, habelə Çernobıl əlilləri ilə görüşlər keçirilmiş və sosial müdafiələri üçün əlavə tədbirlər görülmüşdür.

Toplantıda çıxış edən Çernobıl əlilləri Səfər Cəfərov, Səbahət Əliyev və digərləri bildirmişlər ki, Çernobıl qəzasının aradan qaldırılmasında iştirak edən şəxslərə olan dövlət qayğısı gücləndirilmişdir, Onların pensiya və müavinətləri ölkə başçısı İlham Əliyevin səyləri nəticəsində artırılıb, əlillərin keyfiyyətli müalicəsi üçün müvafiq tədbirlər həyata keçirilir. Çernobıl əlilləri əmindirlər ki, dövlətimiz onları heç vaxt tək qoymayıb, həyat şəraitinin yaxşılaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində lazım olan bütün tədbirlər görülür.

# Qazaxda ağacəkmə iməciliyi keçirilmişdir

**Ulu öndər, ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrlərdə sosial-iqtisadi həyatın bütün sahələri ilə yanaşı, ölkəmizdə yeni parkların, qoruqların və yaşıllıq sahələrinin salınmasına xüsusi diqqət yetirilmiş və bu istiqamətdə genişmiqyaslı tədbirlər hazırlanıb həyata keçirilmişdir.**



Bu gün müasir, müstəqil Azərbaycanın qurucusu və memarı Heydər Əliyev tərəfindən əsası qoyulmuş ekoloji siyasət ölkə prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.



Qazax rayonunda yeni yaşıllıqların salınması, bərpası, mühafizəsi və qorunması ilə bağlı ənənəyə uyğun olaraq rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov, Aparatın əməkdaşları, idarə, müəssisə və təşkilatların əmək kollektivləri, ictimaiyyət nümayəndələri tərəfindən ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə ağacəkmə iməciliyi keçirilmişdir.

Tədbir başlamazdan əvvəl ulu öndərin əziz xatirəsi anılmış və abidəsi önünə gül-çiçək dəstələri qoyulmuşdur. Sonra iməciliyə start verilmişdir. Rayon sakinlərinin və ictimaiyyət nümayəndələrinin də fəallığı ilə müşayiət olunan tədbirdə Bakı-Tbilisi magistral avtomobil yolunun Qazax rayonu ərazisindən keçən hissəsində iqlim şəraitinə uyğun 5 mindən çox müxtəlif növ ağaclar əkilmiş, eyni zamanda həmin ərazidə ötən illərdə əkilmiş ağaclara aqrotexniki qulluq göstərilmiş və təmizlik-abadlıq işləri aparılmışdır.

Bu cür ağacəkmə iməciliklərinin gələcəkdə də keçirilməsi nəzərdə tutulur.

# Qazax rayon İcra Hakimiyyətinin Apellyasiya Şurasının növbəti iclası

**Rayon İcra Hakimiyyətinin dəyirmi masasında İcra Hakimiyyətinin Apellyasiya Şurasının üzvləri və katibliyinin iştirakı ilə növbəti iclası keçirilmişdir.**



Apellyasiya Şurasının sədri Tahir Musayev çıxış edərək Qazax rayon İkinci Şıxlı kənd sakini Əfəndiyev Təhmasib Əfəndi oğlunun müvafiq məhkəmə instansiyalarının qərarının icrası ilə bağlı Qazax rayon İcra Hakimiyyətinin Apellyasiya Şurasına daxil olmuş müraciətinə əsasən iclasın keçirildiyini bildirmiş və iclas iştirakçılarından məlumat və sənədlərlə tanış olub münasibət bildirilməsini xahiş etmişdir. Apellyasiya Şurasının katibliyinin rəhbəri Gündüz Abışov çıxışında Apellyasiya Şurasının Əsasnaməsinə əsasən bütün sənədlərin toplandığını və Şuranın sədrinə verildiyini bildirmişdir.

Mütəxəssis qismində dəvət olunmuş Qazax rayon Maliyyə şöbəsinin rəisi Novruz Abdullayev və şuranın üzvü Mehdi Həsənov müzakirə olunan məsələ ilə bağlı Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məktub göndərilməsini və Qazax rayon İkinci Şıxlı kənd sakini Təhmasib Əfəndiyevin müraciətinin təmin edilməsini təklif etmişlər.

Sonra komissiya üzvlərindən Aqil Qurbanov, Məmməd Alıyev, Sərdar Orucov, Akif Vəliyev çıxış edərək yuxarıda göstərilən təklifə tərəfdar olduqlarını bildirmişlər.

Sonda Apellyasiya Şurasına müraciət edən Təhmasib Əfəndiyev razılığını və yazılı izahatı ilə minnətdarlığını bildirmişdir.

# Qələbənin 71-ci ildönümü qeyd edilmişdir

**Qazax rayon İcra Hakimiyyətində Böyük Vətən Müharibəsində faşizm üzərində qələbənin 71-ci ildönümü münasibətilə toplantı keçirilmişdir. Toplantıda Böyük Vətən Müharibəsi veteranları, arxa cəbhə əmək veteranları, ağsaqqallar və KİV nümayəndələri iştirak etmişdir.**



Rayon İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərov tədbiri giriş sözü ilə açaraq Qələbə Günü münasibətilə veteranları və xalqımızı təbrik etmişdir. Böyük Vətən Müharibəsi veteranlarına ölkə Prezidenti İlham Əliyev tərəfindən dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan danışmışdır. Bildirilmişdir ki, bu müharibəyə təkcə Qazax rayonundan 12510 nəfər səfərbər edilmiş, onlardan 5500 nəfəri döyüş səngərlərində qəhrəmancasına həlak olmuş və 3200 nəfəri isə itkin düşmüşdür.

Hazırda veteranlarımız tərəfindən gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması sahəsində səmərəli iş aparıldığı göstərilmişdir.

Böyük Vətən müharibəsi iştirakçılarından Hümbət Alıyev, Səməd Kosayev, Mustafa Vəliyev və Nəbi Nəbiyev çıxış etmiş, onlara göstərilən köməyə, diqqətə və qayğıya görə ölkə Prezidentinə öz dərin minnətdarlıqlarını bildirmişlər.

Sonra rayon rəhbərliyi tərəfindən müharibə veteranlarına qiymətli hədiyyələr verilmiş və xatirə şəkli çəkilmişdir.

# "Multikultural dəyərlər və Azərbaycançılıq"



**Rayon Gənclər Mərkəzində Yeni Azərbaycan Partiyası Qadınlar Şurasının təşkilatçılığı ilə "Multikultural dəyərlər və Azərbaycançılıq" mövzusunda toplantı keçirilmişdir.**

Toplantıda Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, YAP Qadınlar Şurasının sədri, filologiya elmləri doktoru, professor Nurlana Əliyeva, YAP Mərkəzi Aparatının məsul işçisi Rəfail Gülməmmədov, YAP Gəncə şəhər Təşkilatı Qadınlar Şurasının sədri, millət vəkili Pərvin Kərimzadə, Qazax, Tovuz, Daşkəsən, Göygöl, Şəmkir, Samux, Gədəbəy, Ağstafa, Kəlbəcər rayon təşkilatları Qadınlar Şurasının sədrləri, Yeni Azərbaycan Partiyasının üzvləri, KİV və ictimaiyyət nümayəndələri iştirak etmişlər

Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad etmişlər.

YAP Qazax rayon Təşkilatı Qadınlar Şurasının üzvü, Qazax rayon İcra Hakimiyyəti Başçısının müavini Gulaya Həsənova toplantını giriş sözü ilə açaraq tədbirin mahiyyəti, müvafiq Sərəncama əsasən Azərbaycanda 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsi və multikulturalizmin Azərbaycanda dövlət siyasəti səviyyəsində təbliğinə dair geniş məruzə ilə çıxış etmişdir.

Sonra YAP Qadınlar Şurasının sədri Nurlana Əliyeva mültikulturalizmin tarixi kökləri, Azərbaycan mədəniyyətindəki yeri, əhəmiyyəti və dövlət siyasəti səviyyəsində inkişafı barədə çıxış edərək multikultural dəyərlərin geniş miqyasda təbliğ olunmasının önəmini vurğulamışdır. Söyləmişdir ki, bu cür tədbirlərin keçirilməsi dövlətimizin, xalqımızın multikultural dəyərlərə verdiyi qiymətin göstəricisidir. Mədəniyyətin özü də bu dəyərlərə daxildir. Azərbaycanın musiqisi, muğamı bütün dünyada təbliğ olunur. Ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva bu istiqamətdə mühüm işlər görür. Şuranın tədbirlər planına uyğun olaraq "Multikultural dəyərlər və azərbaycançılıq ideologiyası" mövzusunda tədbirlərin bütün respublika ərazisində keçirildiyini qeyd etmişdir. Azərbaycançılıq ideologiyası ulu öndər, ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra geniş miqyasda inkişaf edib. Və bu ideologiya sayəsində bütün dünya Azərbaycanı milli-mənəvi dəyərlərə dəyər verən bir ölkə kimi tanımışdır. Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ictimai-siyasi sabitliyin tam təmin olunması və iqtisadi qüdrətimizin getdikcə artması regional əməkdaşlığı gündən-günə möhkəmləndirir. Siyasi, iqtisadi və mədəni əlaqələrin uğurla davam etdirilməsi Azərbaycanı artıq çox nüfuzlu beynəlxalq tədbirlərin keçirildiyi məkana çevirib. N.Əliyeva multikultural dəyərlərin geniş mahiyyətə malik olduğunu, multikulturalizm terrorun, müharibənin qarşısının alınmasında böyük əhəmiyyət kəsb etdiyini qeyd edərək azərbaycan qadınını multikultural dəyərlərin geniş şəkildə təbliğinə çağırmışdır.

Sonra YAP Gəncə rayon Təşkilatı Qadınlar Şurasının sədri, millət vəkili Pərvin Kərimzadə, YAP Göygöl rayon Təşkilatı Qadınlar Şurasının sədri Nuranə Quliyeva, YAP Tovuz rayon Təşkilatı Qadınlar Şurasının sədri Aybəniz Dəmirova, YAP Kəlbəcər rayon Təşkilatı Qadınlar Şurasının sədri Vüsalə Əsədova mövzu ətrafında çıxış etmişlər.

Sonda YAP Qazax rayon Təşkilatının sədri Həmid Pənahov çıxış edərək tədbirin Qazax rayonunda keçirilməsinə görə YAP İcra Katibliyinə və YAP Qadınlar Şurasına öz təşəkkürünü bildirmişdir. YAP Qazax rayon təşkilatının üzvü olan qadınların rayonun ictimai-siyasi həyatındakı rolundan və onların fəaliyyətindən danışmışdır.

# "Dini ekstremizm və radikalizmin fəsadları"




**Dini Qurumlarla Iş Üzrə Dövlət Komitəsinin layihəsi çərçivəsində rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Dini ekstremizm və radikalizmin fəsadları" mövzusunda tədbir keçirilmişdir.**

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Qazax filialında keçirilən tədbiri giriş sözü ilə RİHB aparatında ictimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini Məhəmməd Orucov açaraq mövzunun aktuallığından danışmışdır. Dini ektremizmin və radikalizmin bu gün hər kəsi maraqlandıran və diqqət mərkəzində olan məsələlərdən biri olduğunu qeyd etmişdir. Bildirmişdir ki, dini ekstremizm və radikalizm meylləri o zaman meydana gəlir ki, kimlərsə dindən siyasi məqsəd, hakimiyyəti ələ almaq və yaxud hansısa bu və ya digər marağını ifadə etmək, həyata keçirmək üçün istifadə edir. İslam dininin mənəviyyatımız, mədəniyyətimiz, mental dəyərlərimizlə bağlı olduğunu bildirən M.Orucov bu gün hər bir Azərbaycan vətəndaşının, xüsusilə də gənclərin üzərinə dinimizi, milli-mənəvi dəyərlərimizi düzgün təbliğ etmək kimi məsuliyyətli bir vəzifə düşdüyünü söyləyib.

Dini Qurumlarla Iş Üzrə Dövlət Komitəsinin Qərb Bölgəsi üzrə şöbə müdiri Eldəniz Vəliyev isə diqqətə çatdırıb ki, dövlət-din münasibətləri zəngin milli ənənələrimizə söykənir və müasir hüquq normaları ilə tənzimlənir. O, bildirib ki, dinin cəmiyyət həyatında, xüsusən də gənclərin mənəvi-əxlaqi tərbiyəsində yeri və rolu düzgün qiymətləndirilməli, mütərəqqi islami dəyərlərin təbliği, təşviqi müasir tələblər səviyyəsində aparılmalı, dindən siyasi məqsədlər üçün istifadəyə yol verilməməlidir.

Daha sonra rayon prokurorunun müavini Rafael Həsənov, Polis şöbəsinin rəis müavini Nazim Əliyev, ADPU Qazax filialının direktor müavini Məmməd Yusifov, QMİ-nin bölgə qazisi İlham Süleymanov və başqaları çıxış edərək dini radikalizm və ekstremizmə qarşı mübarizədə gənclər arasında maarifləndirmə tədbirlərinin mütəmadi davam etdirilməsinin vacibliyini vurğulamışlar.

Tədbirib sonunda gəncləri maraqlandıran suallar cavablandırılmışdır.

# "Əmək yarmarkalarının təşkili və keçirilməsinin əhəmiyyəti"

**Rayon Məşğulluq Mərkəzi tərəfindən "Əmək yarmarkalarının təşkili və keçirilməsinin əhəmiyyəti" mövzusunda dəyirmi masa keçirilmişdir. Mədəniyyət Mərkəzinin akt zalında keçirilən tədbirdə idarə, müəssisə və təşkilat rəhbərləri, KİV nümayəndələri iştirak etmişdir.**

Qazax rayon Məşğulluq Mərkəzinin direktoru Elçin Nəsibov tədbiri giriş sözü ilə açaraq bildirmişdir ki, respublikamıza onun dinamik inkişafının və sağlam gələcəyinin təminatı olan gənc və peşəkar kadrların qazandırılması hər zaman qarşımızda duran prioritet məsələlərdən biri olmuşdur. Ölkəmizdə qeyri-məşğul əhalinin sosial müdafiəsinin təmin edilməsi, xüsusilə onların məşğulluğunun gücləndirilməsi sahəsində məşğulluq xidməti tərəfindən vaxtaşırı olaraq bir sıra aktiv tədbirlər həyata keçirilir. Bu tədbirlərindən biri də əhali arasında geniş rəğbət qazanmış, respublikanın bütün şəhər və rayonlarında hər il keçirilən "Əmək yarmarkaları"dır. E.Nəsibov onu da qeyd etmişdir ki, rayon Məşğulluq Mərkəzi olaraq bu cür tədbirlərin keçirilməsinin əsas məqsədi də vətəndaşların məşğulluğunu və əmək hüquqlarının həyata keçirilməsini təmin etməkdir. Belə tədbirlərin sayının artması ölkənin inkişafı deməkdir.

Məşğulluq Mərkəzinin baş məsləhətçisi Xalidə Hacıyeva məruzə ilə çıxış edərək əmək yarmarkalarının təşkili və onun əhəmiyyətindən danışmışdır.

Mərkəzin baş məsləhətçi-mühasibi Aqil Əmrahov öz çıxışında hər bir idarə, müəssisə və təşkilat tərəfindən boş iş yeri yarandığı halda mərkəzə məlumat verilməsinin vacibliyini, əks halda məlumat verilmədiyi təqdirdə isə həmin təşkilatlara qarşı müvafiq cərimələrin tətbiq ediləcəyini bildirmişdir.

Sonra MİHİ Qazax rayon komitəsinin sədri İsgəndər Qurbanov və başqaları çıxış edərək Məşğulluq Mərkəzi tərəfindən keçirilən bu cür tədbirlərin təqdirəlayiq olduğunu qeyd etmişlər.

**Nüşabə HÜSEYNOVA**

# Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş açıq rayon turniri keçirilmişdir

**Qazax Olimpiya İdman Kompleksində rayon Gənclər və İdman İdarəsi və "Göyəzən" MMC-nin birgə təşkilatçılığı və "Turanbank" ASC-nin maliyyə dəstəyi ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş yeniyetmələr arasında sərbəst güləş üzrə açıq rayon turniri keçirilmişdir.**

Turnirdə Qazax idmançıları ilə yanaşı, Ağstafa, Tovuz, Şəmkir, Göygöl, Bərdə və Ağdam rayonlarından 11 komandadan ümumilikdə 242 nəfər idmançı qələbə uğrunda mübarizə aparmışlar.

Yarış başlamazdan əvvəl ulu öndərin əziz xatirəsi anılmış və abidəsi önünə gül-çiçək dəstələri qoyulmuşdur.

Açılış mərasimində Sərbəst güləş üzrə Azərbaycan yığmasının böyük məşqçisi Firdovsi Umudov, Qazax RİHB aparatının məsul işçisi Sərdar Orucov və "Turanbank" ASC-nin İdarə Heyətinin sədr müavini Fəzail Musayev çıxış edərək idmançılara uğurlar arzulamışlar.

Yarışda I, II, III yeri tutmuş idmançılar müvafiq diplom və medallarla təltif olunmuşlar.





# QAZAX RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI AYAZ ƏSGƏROV YENİ QƏSƏBƏDƏ SAKİNLƏRLƏ GÖRÜŞMÜŞDÜR

**Bu günlərdə Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov rayonun Qazaxbəyli kəndində məcburi köçkünlər üçün salınmış 304 ailəlik müasir tipli qəsəbədə olmuş və orada məskunlaşan sakinlərlə görüşmüşdür. Görüşdə idarə, müəssisə və təşkilat rəhbərləri, KİV nümayəndələri iştirak etmişdir.**

Rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov çıxış edərək yeni mənzil alan bütün sakinləri təbrik etmiş, gələcək işlərində uğurlar arzulamışdır. A.Əsgərov bildirmişdir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısı ilə hər il minlərlə məcburi köçkün ailəsinin mənzil-məişət şəraiti yaxşılaşdırılır. Torpaqlarımızın işğaldan azad edilməsi, məcburi köçkünlərin doğma ocaqlarına qaytarılması, buna qədər isə onların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması ölkəmizin qarşısında duran prioritet məsələlərdən biridir. Dövlət başçısı qaçqın və məcburi köçkünlərin problemlərinin həllini müntəzəm olaraq diqqət mərkəzində saxlayır və bu məqsədlə qarşıya konkret vəzifələr qoyur. Sərhəd bölgəsi olan Qazax rayonu ərazisində müvəqqəti məskunlaşan məcburi köçkün ailələri üçün rayonun Qazaxbəyli kəndinin səfalı guşəsində geniş bir ərazini əhatə edən, bütün zəruri sosial-texniki infrastruktur obyektləri ilə birlikdə salınmış və artıq öz sakinlərini qəbul edən şəhərcik də icra olunan belə vəzifələrin ən bariz nümunəsidir.

Sonra yeni mənzil alan sakinlər çıxış edərək məcburi köçkünlər adından yaradılan bu cür şəraitə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildirmişlər.

# Qazax rayonunda məcburi köçkünlər üçün yeni yaşayış kompleksi istifadəyə verilmişdir



**Bu gün cəbhə bölgəsində yerləşən Qazax rayonunda sözün həqiqi mənasında, yüksək əhval-ruhiyyə, xoş ovqat yaşanır. Dövlət başçısının müdrikliyinə qəlbən inanan, Milli Ordumuzun şücaətinə arxalanan qazaxlılar indi böyük sevinc içərisindədirlər. Bu sevincdən isə kəndləri işğal altında olan, artıq neçə illərdir ki, məcburi köçkün kimi rayon ərazisindəki müxtəlif obyektlərdə müvəqqəti məskunlaşan soydaşlarımıza daha çox pay düşür.**



Belə ki, onlar bu günlərdə rayonun Qazaxbəyli kəndində məcburi köçkünlər üçün salınmış 304 ailəlik müasir tipli qəsəbədən aldıqları və artıq köç edərək məskunlaşdıqları mənzillərin sevincini yaşayırlar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısı ilə hər il minlərlə məcburi köçkün ailəsinin mənzil-məişət şəraiti yaxşılaşdırılır. Torpaqlarımızın işğaldan azad edilməsinin, məcburi köçkünlərin doğma ocaqlarına qaytarılmasının, buna qədər isə onların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılmasının ölkəmizin qarşısında duran prioritet məsələ olduğunu daim diqqətə çatdıran dövlətimizin başçısı qaçqın və məcburi köçkünlərin problemlərinin həllini müntəzəm olaraq diqqət mərkəzində saxlayır və bu məqsədlə qarşıya konkret vəzifələr qoyur. Bu vəzifələrin yüksək səviyyədə həlli istiqamətində Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müəyyən etdiyi strategiya, həmçinin dövlət başçısının qaçqınlara və məcburi köçkünlərə diqqət və qayğısından irəli gələn tapşırıqlar vaxtından əvvəl və keyfiyyətlə yerinə yetirilir.

Respublika Prezidentinin 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiq edilən "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na 2011-ci il 21 fevral tarixli Sərəncamla edilmiş "Əlavələr"in 1.7-ci bəndinin icrası ilə əlaqədar olaraq sərhəd bölgəsi olan Qazax rayonu ərazisində müvəqqəti məskunlaşan məcburi köçkün ailələri üçün rayonun Qazaxbəyli kəndinin səfalı guşəsində geniş bir ərazini əhatə edən, bütün zəruri sosial-texniki infrastruktur obyektləri ilə birlikdə salınmış və artıq öz sakinlərini qəbul edən şəhərcik də yuxarıda deyilənlərin bariz nümunəsidir.



Layihəyə uyğun olaraq, ərazidə 10 dördmərtəbəli 304 mənzilli bina tikilib. Binalarda 52 birotaqlı, 156 ikiotaqlı, 88 üçotaqlı, 8 dördotaqlı mənzillər var. Ərazidə bundan əlavə 220 şagird yerlik məktəb binası, 50 yerlik uşaq bağçası, tibb məntəqəsi, ATS binası və klub-icma mərkəzi üçün də binalar tikilib. Yaşayış kompleksi qaz, su, müasir istilik sistemi və elektrik enerjisi ilə tam təchiz olunub, hərtərəfli abadlıq və 3,6 hektarı əhatə edən ərazidə yaşıllaşdırma işləri aparılıb. Yaşayış binasının tikintisinə 2015-ci ilin aprelində başlanılıb və dekabrında tam başa çatdırılıb.

# "ÖLKƏ BAŞÇISINA MİNNƏTDARIQ"

## MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN SALINMIŞ YENİ QƏSƏBƏNİN SAKİNLƏRİ ÖZ MİNNƏTDARLIQLARINI BU SÖZLƏRLƏ BİLDİRMİŞLƏR

**Deyirlər: "İnsan əli xariqələr yaradır". Bu doğurdan da belədir. Yeni salınmış qəsəbəyə baxanda bunun bariz nümunəsini görürsən. Biz buraya ötən il gəlmişdik. Tikinti yeni başlamışdı. Ətraf tikinti materialları, avadanlıqlarla dolu idi. İnsana elə gəlirdi ki, burada başlanan iş bir neçə il müddət vaxt aparacaq. Kimin ağlına gələrdi ki, 1 ildən sonra burada yeni qəsəbə salınacaq, hətta insanlar yeni həyata başlayacaqlar.**

Budur, biz yeni qəsəbədəyik. Ətraf göz oxşayır. Buradakı səliqə-sahman, yaradılan gözəllik, ətrafa salınmış yaşıllıq, sıra ilə düzülmüş ağacların mənzərəsi, evlərdə yanan gur işıqlar insanı valeh edir. Qəsəbədə salınmış parkda oynayan körpə fidanları görəndə onların xoşbəxt gələcəyinə bir daha əmin olursan. Bunları görəndə bir qazaxlı kimi bizim də ürəyimiz dağa dönür. Diqqətimizi çəkən gözəl mənzərələrdən biri də yaşlıların qəsəbənin həyətində salınmış parkda qəsəbənin yeni sakinlərinin oturub söhbət etməsi, həyətdə oyun oynayan körpələrin gülüş və sevinc səslərinin ətrafa yayılması oldu. Bir sözlə, bütün bunlar yeni qəsəbədə qaynar bir həyatın başlamasından xəbər verir.

Bəli, bu gün yeni salınan qəsəbə öz qapılarını illərdir ki, doğma yurd-yuvalarından ayrı düşmüş Aşağı Əskipara, Yuxarı Əskipara, Sofulu, Xeyrımlı, Barxudarlı və Bağanıs Ayrım kəndlərindən olan məcburi köçkünlərin üzünə açmışdır. Artıq onlar da hər cür şəraiti olan təzə mənzillərdə yaşayır. Onlar üçün də həyat sanki yenidən başlayıb. Çünki bu sevinc hissini onlarla görüş zamanı üzlərindən aydın şəkildə görmək olurdu.

İlk qonağı olduğumuz ev isə Yuxarı Əskipara kənd sakinləri Novruz Hüseynov və Zəminə Həsənovanın evi oldu.





Qapını bizə Zəminə xanım açdı. Çox sevincli görünürdü. "Artıq bizim yeni evimizə də qonaq gəldi" - deyərək bizi gülərüzlə qarşıladı. Sonra bizi yeni mənzili ilə tanış etdi. Hər cür şəraiti olan mənzildə hər şey onların könlüncə bəzədilmişdi. Z.Həsənova sevincək otaqların qapılarını bir-bir açaraq bizə göstərdi. Bütün otaqlarda normal yaşayış üçün hər cür şərait vardır. Zəminə xanım onu da qeyd etdi ki, əvvəllər şəraitsiz yerdə övladlarım dərslərinə hazırlaşmaqda çətinlik çəkirdi. Rəfiqələri, dostları evə gələndə sıxılırdı. Bir ana kimi bu da məni narahat edirdi. Təsəvvür edin bir neçə nəfər bir otaqda qalırdıq. Əlamətdar günləri, ad günü və bayramları layiqincə qeyd edə bilmirdik. İndi isə gördüyünüz kimi belə geniş və işıqlı otaqlarımız var.

Aşağı Əskipara kənd sakini Rəna Abbasova ilə elə binanın həyətində salınmış istirahət parkında rastlaşdıq. O, nəvələrinin əlindən tutub parkda gəzdirirdi. Bizi görüncə sözə özü başladı. "Bizim yeni qəsəbəmizə xoş gəlmisiniz. Əslində hər gün gözümüz yoldadı. Hamı bizi təbrikə, gözaydınlığına gəlir. Çünki əvvəlki vəziyyətimiz hamıya bəllidir. Düzdür, mənfur ermənilərin ucbatından öz el-obamızdan didərgin düşdük. Bəli, biz çöldə qalmadıq. Sağ olsun dövlətimiz bizə qucaq açdı. Müəyyən şəraitlə təmin etdi. Lakin indi daha gözəl, müasir tipli binalarda bizi yerləşdirdilər. İllərdir ki, övladlarımızı bərbad, şəraitsiz yerdə böyüdürdük. İndi sevinirəm ki, körpə fidanlarımız öz doğma yurd-yuvamıza qayıdana kimi belə gözəl şəraiti olan qəsəbədə yaşayacaqdır. Və əminəm ki, o günə az qalıb.



Bizi görən kimi Tofiq Musayev yanımıza gəldi. Öyrəndik ki, Xeyrımlı kənd sakinidir. O, sevincək halda, həyəcanlı səslə dedi:

- Gördüyünüz bu qəsəbənin binalarının pəncərəsi şairlərin min bir sözlə vəsf etdiyi Avey dağına açılır. İndi də təbiətin gözəl vaxtıdır. Hər yer yamyaşıl örpəyə bürünüb. Xəyalım məni bu mənzərəni seyr edəndə Vətənə aparır. İnanıram ki, bizə bu gözəl şəraiti yaradan Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yaxın vaxtlarda torpaqlarmız geri alınacaq və biz öz doğma yurd-yuvamıza qayıdacağıq. O gün uzaqda deyil.

Bağanıs Ayrım kənd sakini Firəngiz Həsənova: Ölkə Başçısına minnətdarlıq etmək üçün söz tapmıram. Əslində hər şey göz önündədir. Belə səfalı yerdə bizə hər cür şəraiti olan yeni qəsəbə salınıb. Burada yaşlılarla yanaşı uşaqlar üçün də hər cür şərait var. Körpələrimiz geniş və işıqlı bağçada təlim-tərbiyə olunacaq, uşaqlarımız müasir tipli məktəbdə təhsil alacaqdır. Qaçqın düşdüyümüz vaxtdan demək olar ki, dövlətimiz bizə hər zaman qayğı göstərib. Bizə olan diqqəti həmişə hiss etmişik. Deyərdim ki, bu yeni qəsəbə də illərdir ki, göstərilən diqqət və qayğının ən bariz nümunəsidir. Burada hər şeyimiz var. İsti su, soyuq su, qaz, işıq hamısı fasiləsiz verilir.

Sofulu kənd sakini Anar Qarasaqqalov bizimlə söhbət zamanı bildirdi ki, bu gün cəbhə bölgəsində yerləşən Qazax rayonunda sözün həqiqi mənasında, yüksək əhval-ruhiyyə, xoş ovqat yaşanır. Dövlət başçısının müdrikliyinə qəlbən inanan, Milli Ordumuzun şücaətinə arxalanan qazaxlılar indi böyük sevinc içərisindədirlər. Bu sevincdən isə kəndləri işğal altında olan, artıq neçə illərdir ki, məcburi köçkün kimi rayon ərazisindəki müxtəlif obyektlərdə müvəqqəti məskunlaşan bizlərə də pay düşür. Belə ki, bu günlərdə rayonun Qazaxbəyli kəndində məcburi köçkünlər üçün salınmış müasir tipli qəsəbədən verilmiş mənzilin sevincini mən də yaşayıram. Hər cür şərait yaradılıb. Bütün infrastrukturlarla təmin olunub. Demək olar ki, lazım olan hər şey var. Şəhərə getməyə belə ehtiyac qalmır.

Aşağı Əskipara kənd sakini Yaşar Namazov və Yuxarı Əskipara kənd sakini Mədinə Vəliyeva da yaradılmış şəraitdən ürəkdolusu danışdılar. Yeni məhəlləyə köçürülən məcburi köçkünlər adından yaradılan bu şəraitə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər. Onlar Azərbaycan Prezidentinə arxalandıqlarını, dövlət başçısının müdrik, qətiyyətli siyasəti nəticəsində tezliklə işğal altındakı bütün torpaqlarımızın azad ediləcəyinə inandıqlarını söylədilər.

**"GÖYƏZƏN"**

# Hüquqi dövlət quruculuğunda Heydər Əliyev irsi

**Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, dahi Azərbaycanlı, ulu öndər Heydər Əliyevin 93 illik yubileyi günlərində müasir tariximizin parlaq və silinməz səhifələrini təşkil edən Vətən, xalq qarşısında misilsiz xidmətləri bütün dünya azərbaycanlılarının yüksək ehtiramı ilə ölkəmizin hər yerində və onun hüdudlarından kənarda geniş qeyd olunur.**

Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan xalqımızın tarixində ümummilli liderimizin şəxsiyyəti, onun siyasi və idarəçilik fəaliyyəti müstəsna yer tutur. Xalqımız tarix boyu arzuladığı milli dövlətçilik amallarını məhz Heydər Əliyev epoxasında gerçəkləşdirərək dayanıqlı müstəqil Azərbaycan dövlətini qura bilmişdir.

Müasir Azərbaycan tarixinin 30 ildən artıq bir dövründə respublikamıza rəhbərlik etmiş Heydər Əliyev dövlətçilik salnaməsində elə bir irs yaratmışdır ki, onun öyrənilməsinə, təbliğinə və tətbiqinə hələ uzun illər böyük ehtiyac olacaqdır və bu irs heç zaman tükənməyəcəkdir.

Hər zaman Azərbaycan xalqının mənafeyini düşünən Heydər Əliyev azərbaycanlı olması ilə fəxr edirdi. Dahi rəhbərin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" müdrik kəlamı dillər əzbəri olmuş, hər bir azərbaycanlının iftixarla səsləndirdiyi şüara çevrilmişdir.

Ümummilli liderimizin 1969-1982-ci illərdəki əvəzsiz xidmətlərinə nəzər salanda bir daha aydın olur ki, Heydər Əliyev hələ o dövrdə respublikaya rəhbərlik etdiyi vaxtlarda ölkəmizdə qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsinə, strateji əhəmiyyətli sənaye və istehsal müəssisələrinin inşasına nail olmaqla Azərbaycanın iqtisadi inkişaf göstəricilərinə görə keçmiş İttifaq miqyasında ilk yerlərdən birini tutmasını təmin etmiş, müstəqilliyimizə zəmin yaradan uzaqgörən və müdrik addımlar atmışdır.

Bütün dünyada nüfuzlu siyasi xadim kimi tanınan Heydər Əliyev Sovetlər Birliyi kimi dövlətin rəhbərliyində təmsil olunmaqla öz fitri istedadı və şəxsi nüfuzu ilə orada da kəskin fərqlənmişdi. Heydər Əliyev görkəmli dövlət xadimi və müdrik siyasətçi kimi ən yüksək vəzifəyə çəkilməyə layiq bilinirdi. O, ilk azərbaycanlı idi ki, belə zirvəyə gəlib çıxmış, xalqına möhtəşəm xidmətləri ilə Azərbaycanın güvənc yerinə və bütün türk dünyasının fəxrinə çevrilmişdir. Xalqımız 20 yanvar faciəsini yaşayarkən ümummilli liderimiz çoxlarının cürət etmədiyi qətiyyət göstərib Moskvada sovetlər birliyi rəhbərliyini ifşa etdi, imperiya siyasəti əleyhinə çıxdı, doğma xalqı ilə bir yerdə olduğunu bir daha nümayiş etdirdi.

Müstəqilliyin ilk illərində ölkənin məruz qaldığı hərbi təcavüz, Ermənistan-Azərbaycan - Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələri, habelə ölkə daxilində vətəndaş müharibəsinin reallığa çevrildiyi bir şəraitdə xalqımızın yeganə ümidi dəmir iradəyə, yüksək idarəçilik keyfiyyətlərinə, geniş siyasi dünyagörüşünə malik xarizmatik lider olan Heydər Əliyevlə bağlı olmuşdur.

Məhz belə bir mürəkkəb vəziyyətdə 1993-cü ilin yayında ulu öndər xalqın çağırışı ilə respublikaya rəhbərliyə qayıtdı. Xalqımızı və dövlətimizi böyük təhlükələrdən xilas etmək, müstəqil Azərbaycan dövlətini qurmaq missiyasına "ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" söyləməklə başlayan Heydər Əliyev nadir və iti dövlətçilik zəkası, cəsarəti və sarsılmaz iradəsi ilə Azərbaycanda keçmiş sovetlər birliyindən miras qalmış rejim əvəzinə demokratik hüquqi dövlət yaratmağa müvəffəq oldu.

Ölkədə cərəyan edən hadisələri dərindən təhlil edən Heydər Əliyev yaxşı dərk edirdi ki, Azərbaycanın müstəqilliyini təmin etmək, onu möhkəmləndirmək, ölkədə demokratik hüquqi dövlət qurmaq, köklü islahatlar aparmaq üçün, ilk növbədə, ictimai-siyasi sabitlik, qanunçuluq, hüquq qaydası təmin edilməlidir. "Dövlət - dövlətçiliyi qorumalıdır" fikrini dönə-dönə vurğulayan Heydər Əliyev çox qəti və prinsipial mövqedən çıxış edərək ciddi intizam, tələbkarlıq və dövlət mənafeyi kimi amilləri ön plana çəkdi. Ölkədə geniş vüsət almış cinayətkarlığın bütün ünsürlərinə qarşı qəti mübarizə aparmaq üçün 1994-cü ildə imzaladığı xüsusi Fərman qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində əsaslı dönüş yaratdı. Eyni zamanda, milli dövlətçiliyin inkişafında korrupsiyanın aradan qaldırılmasının əhəmiyyəti nəzərə alınaraq bu ümumbəşəri sosial bəla ilə mübarzəyə başlanıldı. Hüquq-mühafizə orqanları tərəfindən müvəffəqiyyətlə həyata keçirilən qəti tədbirlər nəticəsində cəmiyyətdə hökm sürən hərcmərcliyə və özbaşınalığa birdəfəlik son qoyuldu. Müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat çətin olduğunu deyən dahi rəhbər Heydər Əliyev bu ağır vəzifənin öhdəsindən layiqincə gəldi.

Heydər Əliyev dövlət müstəqilliyimizi əbədi və dönməz etdi, ölkəmizə sabitlik, sülh və əmin-amanlıq, siyasi islahatlar, demokratikləşmə, iqtisadi yüksəliş, sosial inkişaf gətirdi. Atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, Azərbaycanı tənəzzül etmiş dövlətdən inkişaf edən ölkəyə çevirdi. Respublikamızın beynəlxalq əlaqələrini möhkəmləndirərək gələcək inkişafa hesablanmış neçə-neçə layihələrin, xüsusilə uğurlu neft strategiyasının təməlini qoydu. Düşünülmüş xarici siyasət kursu ölkəmiz üçün təkcə siyasi dəstək deyil, həm də iqtisadi əməkdaşlıq və investisiya imkanları yaratdı. Azərbaycanın günbəgün beynəlxalq nüfuzu artmağa, iqtisadiyyatımızın müxtəlif sahələrinə külli miqdarda xarici sərmayələr yatırılmağa başlanıldı.

Demokratik hüquqi dövlət quruculuğu prosesi də tam ictimai-siyasi sabitlik bərqərar olunduqdan sonra həyata keçirildi. Ölkədə hüquqi dövləti qurmaq üçün ilk növbədə konstitusion rejim, mükəmməl hüquq sistemi, effektiv məhkəmə hakimiyyəti, hakimiyyətlər bölgüsü kimi prinsiplər yaradılmalı idi. Zəngin dövlətçilik təcrübəsinə malik olan böyük strateq Heydər Əliyev hüquqi dövlətin Azərbaycan modelini ilk milli Konstitusiyanı yaratmaqla gerçəkləşdirdi. Danılmaz faktdır ki, 1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyamızın müəllifi məhz ümummilli liderimiz Heydər Əliyevdir. Həqiqətən də, bu sənəd dünyada nadir konstitusiyalardandır ki, burada demokratik hüquqi dövlətin bütün prinsipləri - qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, hakimiyyət bölgüsü, konstitusiya nəzarəti prinsipləri təsbit olunmuş, insan haqlarının təmini dövlətin ali məqsədi kimi bəyan edilmiş, Konstitusiyamızın üçdə bir hissəsi məhz bu məsələyə həsr edilmişdir.

Prokurorluq totalitar rejimə xas olan bütün səlahiyyətlərdən məhrum edilərək, demokratik cəmiyyətə uyğun yenidən qurulmuş, onun əsas funksiyası cinayət təqibini həyata keçirmək və çəkişmə prinsipinə tam uyğun olaraq dövlət ittihamını müdafiə etməkdən ibarət olmuşdur.

Gərgin fəaliyyət nəticəsində "Prokurorluq haqqında", "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" və hüquq sisteminin mahiyyətini müəyyən edən digər qanun və bütün əsas məcəllələrin layihələri hazırlanaraq qəbul edildi.

İnsan hüquqlarının qorunmasına müstəsna əhəmiyyət verən ümummilli liderimizin 1998-ci ildə imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanında bu sahədə həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası səhih müəyyən edildi, insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırıldı.

Dövlətimizin insan hüquqları sahəsində atdığı ən mühüm addımlarından biri, şübhəsiz ki, ölüm cəzasının ləğvi olmuşdur. 1993-cü ildən ölüm cəzasının icrasına veto qoyulması, 1998-ci ildə isə Şərqdə ilk dəfə olaraq Azərbaycanda bu cəza növünün tamamilə ləğv edilməsi ulu öndər Heydər Əliyevin böyük qəlb və mənəviyyat sahibi olduğunu, şəxsiyyətcə böyüklüyünü bir daha təsdiqləyir.

Bu tarixi addım fəlsəfi, hüquqi düşüncələrə, dərin elmi təhlilə, dünya təcrübəsinə və reallığa əsaslanmaqla şəxsiyyətə və insan hüquqlarına hörmət kimi yüksək amallarla yaşayan ulu öndərin gələcək nəsillərə misilsiz töhfəsi oldu. Ölüm cəzasının ləğvi Azərbaycanın demokratik hüquqi dövlət quruculuğu yolunda olduğunu bir daha sübut etdi.

Yüksək qürur hissi ilə deyə bilərik ki, möhkəm bünövrə üzərində formalaşmış Azərbaycan dövləti sürətli inkişaf dövrünü yaşayır. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən düşünülmüş iqtisadi siyasət və misilsiz əmək nəticəsində Azərbaycan bölgənin aparıcı dövlətinə çevrilmişdir.

Qeyd olunmalıdır ki, Azərbaycanın gələcək milli inkişaf siyasətinin əsas və uzunmüddətli perspektivlərini müəyyən edən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası dahi rəhbərimizin milli inkişaf təliminin məntiqi davamı olaraq Azərbaycandakı bütün proseslərin uğurla həyata keçirilməsinə, makroiqtisadi sabitliyə, dinamik iqtisadi artıma, əhalinin sosial rifahının daha da yüksəldilməsinə hesablanmışdır.

Bu gün hər birimiz Heydər Əliyevin dövlətçilik amallarını, yüksək ideyalarını yaşatmaq və gələcək nəslə çatdırmaq, Azərbaycan tarixinin yeni şanlı səhifələrini yazmaq naminə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ətrafında sıx birləşərək, əlimizdən gələni əsirgəməməliyik.

Azərbaycan zəngin ölkədir, onun istedadlı insanları, tükənməz təbii sərvətləri var, lakin bizim ən böyük sərvətimiz Heydər Əliyevin siyasi irsidir.

Bu gün tam əminliklə söyləyə bilərik ki, hələ çox-çox illər sonra da gələcək nəsillər dahi şəxsiyyət Heydər Əliyevin misilsiz əməyi nəticəsində yaradılmış yeni hüquq sisteminin bəhrəsini görəcək və onun Azərbaycanda demokratik hüquqi dövlət quruculuğu sahəsində əvəzsiz xidmətlərinin şahidi olacaqlar.

**Rəfael Həsənov,**
**Qazax rayon prokurorunun müavini,**
**I dərəcəli hüquqşünas**

# 2016-cı ilin I rübündə Qazax rayonunun sosial-iqtisadi inkişafının makroiqtisadi göstəriciləri

2016-cı ilin birinci rübündə ölkədə istehsal edilmiş ümumi daxili məhsulun həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 3.5% azalaraq 12588.7 milyon manata çatmışdır. Bu dövrdə ÜDM-in 39% sənayedə, 8.4% tikintidə, 13.3% ticarət və nəqliyyat vasitələrinin təmiri üzrə xidmətlər sahəsində, 6.7% nəqliyyat və anbar təsərrüfatında, 2.8% kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda, 2.7% turistlərin yerləşdirilməsi və ictimai iaşədə, 2% informasiya və rabitə xidmətlərində, 16 % isə sosial və digər xidmətrlər sahəsində istehsal olunmuşdur. Məhsula və idxala xalis vergilər ÜDM-in 8.3 faizini təşkil edir. ÜDM-in əhalinin hər nəferinə düşən həcmi 1311.6 manata bərabər olmuşdur. 2016-cı ilin birinci rübündə əhalinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 9.0% artaraq 10303.5 milyard manata çatmış, onun hər nəferinə düşən həcmi orta hesabla 1073.5 manat və ya ayda 357.8 manat təşkil etmişdir. Respublika iqtisadiyyatının əsas sahələrində irəliləyiş olduğu kimi rayonun iqtisadiyyatının əsas sahələrində də irəliləyişlər mövcud olmuşdur. Rayonun iqtisadiyyatının əsas göstəriciləri cədvəldə qeyd olunduğu kimidir:

min manatla

| Göstəricinin adı | 2016-cı ilin 1-ci rübü | 2016-cı ilin 1-ci rübü 2015-ci ilin 1-ci rübünə nisbətən %-lə |
|---|---|---|
| Ümumi məhsul buraxılışı | 30498.7 | 118.1 |
| Sənaye məhsulunun (islərin xidmətlərin) ümumi həcmi | 3277.7 | 106 |
| Əsas kapitala yönəldilən investisiyalar | 3772.7 | 2.5 d çox |
| Kənd təsərrüfatının ümumi məhsulu | 9168.9 | 102.6 |
| Nəqliyyat sektorunda yük daşınması, min ton | 396 | 104.2 |
| Nəqliyyat sektorunda sərnişin daşınması, min. sərnişin | 3597 | 104.9 |
| Poçt və rabitə xidmətlərinin həcmi | 250 | 101.7 |
| Pərakəndə əmtəə dövriyyəsi | 12671.5 | 104.2 |
| Əhaliyə göstərilən pullu xidmətlər | 5950.0 | 103.8 |
| Bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı, manat | 275.0 | 105.7 |

Cədvəldən göründüyü kimi ümumi məhsul buraxılışı keçən ilin eyni dövrü ilə müqayisədə 18.1% artmışdır. Rüb ərzində bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 275.0 manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövründəkindən 5.7 % çoxdur.

## ƏHALİ

01 aprel 2016-cı il tarixinə rayon əhalisinin sayı 94910 nəfər olmuşdur. Rayon əhalisinin 21450 nəfəri şəhərdə, 73460 nəfəri isə kənd yaşayış məntəqələrində yaşayır. Rüb ərzində rayonda 411 nəfər uşaq doğulmuş, 183 nəfər ölüm qeydə alınmışdır. Təbii artım 228 nəfər olmuşdur. Rayona gələnlərin sayı 91 nəfər, rayondan gedənlər isə olmamışdır. Rüb ərzində əhalinin miqrasiya artımı 319 nəfər olmuşdur. 166 nigah qeydə alınmışdır. Boşanmaların sayı 28 olmuşdur.

## KƏND TƏSƏRRÜFATI

Rayon iqtisadiyyatının əsas sahələrindən biri də kənd təsərrüfatıdır. Rayonun iqtisadiyyatında tərəvəzçilik, taxılçılıq, heyvandarlıq aparıcı rol oynayır. Kənd təsərrüfatının başqa sahələri də, yəni meyvəçilik, kartofçuluq və bostan məhsulları istehsalı da inkişaf etdirilir. Rayonun istifadəsində olan kənd təsərrüfatına yararlı torpaq sahəsi onun ərazisinin 66.9 faizini təşkil edir. Torpaq islahatı nəticəsində 15568 ailə 24268 hektar torpaq payına sahib olmuşdur. Orta hesabla hər ailəyə 1.6 hektar torpaq sahəsi verilmişdir. Rayonda uğurla aparılan aqrar islahatlar nəticəsində 19 sovxoz və bir kökəltmə məntəqəsi ləğv edilmiş onlara məxsus torpaq sahəsi və əmlak əhaliyə paylanmışdır. Eyni zamanda ötən dövr ərzində müxtəlif təşkilatı hüquqi formalı 119 yeni kənd təsərrüfatı müəssisəsi yaradılmışdır. İqtisadiyyatın bazar münasibətlərinə keçdiyi bir şəraitdə sənayeni xammalla, əhalini isə ərzaqla təmin etmək üçün ölkəmizdə kənd təsərrüfatı sahəsini daha da inkişaf etdirmək ən əhəmiyyətli və vacib şərtlərdən biridir. Kənd təsərrüfatının əsas sahələrindən biri bitkiçilikdir.

01 aprel 20116-cı il tarixinə rayonda 344 hektar sahədə səpin aparılmışdır ki, bu da keçən ilin müvafiq dövründən 114 hektar çoxdur. Səpinin 72 hektarı dənli, dənli paxlalılar, 88 hektarını yonca, 162 hektarını kartof, 22 hektarını tərəvəz təşkil edir.

2016-cı ilin I rübündə heyvandarlıq məhsulları istehsalı aşağıdak cədvəldə göründüyü kimidir:

| S/N | Məhsulun adı | Ölçü vahidi | 2016-cı ilin I rübü | 2015-ci ilin I rübü | Fərq +- |
|---|---|---|---|---|---|
| 1 | Ət (diri çəkidə) | ton | 1387 | 1353 | +34 |
| 2 | Süd | ton | 7599 | 7453 | +146 |
| 3 | Yumurta | min ədəd | 2690 | 2538 | +152 |
| 4 | Yun | ton | | | |

Cədvəldən göründüyü kimi il keçən ilin müvafiq dövrünə nisbətən ət istehsalı 34 ton, süd istehsalı 146 ton, yumurta istehsalı 152 min ədəd artmışdır. Bu artım əsasən əhali təsərrüfatlarının hesabına olmuşdur. Mal-qaranın baş sayı aşağıdakı cədvəldəki kimidir:

| | ölçü vahidi | 01.01.2002 | 01.01.2013 | 01.04.2015 | 01.04.2016 | 01.04.2016 01.04.2015 ci ilə nisbətən %-lə |
|---|---|---|---|---|---|---|
| İri buynuzlu mal-qara | Baş | 29938 | 30019 | 30254 | 30333 | 100.3 |
| O cüm: inək və camışlar | Baş | 15497 | 15611 | 16018 | 16096 | 100.5 |
| Qoyun və keçilər | Baş | 152614 | 144928 | 144060 | 146165 | 101.5 |

## SƏNAYE

2016-cı ilin I rübündə rayonun sənaye təşkilatlarında 3277.7 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrüdə olduğundan 6.0 faiz çox sənaye məhsulu istehsal edilmiş və ya xidmətlər göstərilmişdir. İstehsal edilmiş məhsulun 1736.8 min manatı dövlət sektoruna, 1440.9 min manatı isə qeyri-dövlət sektoruna aiddir. Sənaye təşkilatlarında məhsul istehsalı dövlət sektorunda artmış, qeyri-dövlət müəsisələrində isə keçən ilin müvafiq dövrünə nisbətən azalmışdır. Məhsulun 100 min manatlığı fiziki şəxslər tərəfindən istehsal olunmuşdur. Sənaye sahəsində məhsul istehsalının seksiyalar üzrə müqayisəsi aşağıdakı diaqramda göstərildiyi kimidir.

İstehsal olunmuş məhsulun 1193.5 min manatı B seksiyasına, mədənçıxarma sənayesinə aiddir. Bu ümumi məhsul istehsalının 36.4%-ni təşkil edir. Rayonda 2016-cı ilin I rübündə ildə iki gil istehsalı müəssisəsi fəaliyyət göstərmişdir və 1119.2 min manatlıq məhsul istehsal olunmuşdur. Tikinti daşı istehsal edən müəssisələr tərəfindən görülən işin həcmi 49.3 min manat olmuşdur. Bu seksiyada fiziki şəxslər tərəfindən görülən işin həcmi 25 min manat olmuşdur. Bu seksiyada fiziki şəxslər tikinti daşı istehsal etmişlər. C seksiyasına, emal sənayesinə aid olan müəsisələr tərəfindən görülən işin həcmi 339.1 min manat olmuşdur. Bu ümumi məhsul istehsalının 10.3%-ni təşkil edir. 2016-cı ilin I rübü ərzində 65.8 min manatlıq dondurulmuş meyvə və tərəvəz istehsal olunmuşdur. 2016-cı ilin I rübü ərzində 3.0 min manatlıq xalça, 316.3 min manatlıq mebel istehsal olunmuşdur. Bu seksiyada çörək istehsalının həcmi 75 min manat, o cümlədən fiziki şəxslər tərəfindən görülən işin həcmi 75 min manat olmuşdur. Görülən işin həcminin 1600.2 min manatı D seksiyasına aiddir. Bu ümumi məhsul istehsalının 48.8%-ni təşkil edir. Ümumi məbləğin 346 min manatı elektrik enerjisinin satışından, 1245.9 min manatı isə qaz satışından əldə olunan gəlirdir. E seksiyasına daxil olan müəssisələr tərəfindən görülən işin həcmi 144.9 min manat olmuşdur. Bu məhsul istehsalının 0.4%-ni təşkil edir. Bu məbləğin 144.9 min manatı su satışından əldə olunan gəlirdi. Bu seksiyada 55.3 min manatlıq kommunal xidmətlər göstərilmişdir. İstehsal olunmuş məhsulun hamısı rayonda fəaliyyət göstərən sənaye müəssisələrinin öz istehsalıdır. 2016-cı ilin aprel ayının 1-i tarixinə rayonda 987.8 min manatlıq sənaye məhsulu qalığı olmuşdur. Bu qalığın 628.9 min manatı gil, 155.0 min manatı isə təmiz spirt, 203.9 min manatı isə konservləşdirilmiş meyvə, tərəvəz olmuşdur. 2016-cı ilin I rübündə istehsal olunmuş sənaye məhsulları natura ifadəsi ilə aşağıdakı kimidir:




| Məhsulun adı | Ölçü vahidi | 2016-cı ilin I rübündə istehsal | Göndərilmişdir | Məhsul qalığı | 2015-ci ilin I rübündə istehsal | 2016-cı ilin I rübü 2015-ci ilin I rübünə nisbətən %-lə |
|---|---|---|---|---|---|---|
| Tikinti daşı | Ton | 4764.2 | 4764.2 | | 5625 | 84.7 |
| Gil (əmtəlik) | Ton | 6497 | 10961 | 42475.8 | 3380 | 192.2 |
| Qum | Ton | - | - | - | - | - |
| Şərab | Mdal | - | - | - | 0.2 | - |
| Təmiz spirt | Mdal | - | - | 10.7 | - | - |
| Çörək | ton | 170 | 170 | - | 160 | 106.3 |
| Dondurulmuş meyvə | ton | 44965 | 44965 | 210 | 127367 | 3.6d çox |
| Xalça | Kvm | 30 | 30 | - | 30 | 100 |
| Yumşaq mebel | ədəd | 231 | 231 | - | 240 | 96.3 |
| Yataq mebel dəsti | ədəd | 105 | 105 | - | 224 | 46.9 |
| Qonaq otağı üçün mebel | ədəd | 117 | 117 | - | 204 | 57.4 |
| Qazlı su | Mindal | 15.3 | 15.3 | - | 26.7 | 57.3 |
| Elektrik enerjisi | Minkv | 26.5 | 25.3 | | 26.4 | 100.4 |
| Qaz | Mln kub | 26.6 | 25.3 | - | 35.7 | 74.5 |
| Su | Minkub | 322.7 | 273.5 | | 311.3 | 103.7 |

2016-cı ilin I rübü ərzində rayonda müəssisələr tərəfindən 4764.2 ton tikinti daşı istehsal olunmuş və istehsal olunmuş məhsulun hamısı satılmışdır. Gil istehsalı həmin dövrdə 6497 ton olmuşdur. Rüb ərzində 10961 ton gil satılmış və 2016-cı ilin aprel ayının 1-i tarixinə 42475.8 ton məhsul qalığı olmuşdur. 2016-cı ilin I rübü ərzində 170 ton çörək, 15.3 min dekalitr qazlı su istehsal olunmuşdur. 2016-cı ilin aprel ayının 1-ə məhsul qalığı 10684 dekalitr təmiz spirt olmuşdur. 2016-cı ilin I rübü ərzində 30 kvadratmetr xalça istehsal olunub satılmışdır. Həmin dövrdə mebel istehsalı ilə məşğul olan müəssisələr tərəfindən 105 ədəd yataq mebel dəsti, 117 ədəd qonaq otağı üçün mebel, 231 ədəd yumşaq mebel dəsti istehsal olunub satılmışdır.

2016-cı ilin I rübü ərzində rayonda 45 ton konservləşmiş meyvə, tərəvəz istehsal olnmuş, 0.2 ton məhsul satılmış, dövrün axırına 127.4 ton məhsul qalığı olmuşdur. Rüb ərzində rayonda 26500 min kilovat elektirik enerjisi, 26600 min kub qaz bölüşdürülmüşdür. Rayonda 2016-cı ilin I rübü ərzində 322.7 min kub su istehsal olunub satılmışdır. 2016-cı ilin I rübü ərzində rayonun sənaye müssisələrində 892 nəfər işçi çalışmışdır ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 110.7 faiz təşkil edir. İşçilərin 356 nəfəri dövlət sektorunda, 536 nəfəri isə qeyri-dövlət sektorunda çalışır. Sənaye müəssisələrində orta aylıq əməkhaqqı 305.2 manat olmuşdur. Orta aylıq əməkhaqqı dövlət sektorunda isə 381.6 manat, qeyri-dövlət sektorunda isə 249.5 manat olmuşdur. Rayonda yerləşən sənaye müəssisələrinə rüb ərzində 306 nəfər işçi qəbul edilmiş, 43 nəfər işdən öz xahişi ilə azad edilmişdir.

## ƏSASLI TİKİNTİ

2016-cı ilin I rübündə rayonda istifadəyə verilmiş əsas fondların dəyəri 22341.5 min manat, əsas kapitala yönəldilmiş investisiyaların həcmi 4427 min manat, tikinti quraşdırma işlərinin həcmi 3772.7 min manat təşkil etmişdir. İstifadəyə verilmiş əsas fond Qazaxbəyli kəndi ərazisində tikilib istifadəyə verilmiş məcburi köçkün şəhərciyidir. Buraya daxildir 304 mənzili olan 10 ədəd 4 mərtəbəli yaşayış binası, məktəb, bağça, mədəniyyət evi və sair yardımçı binalar. Rüb ərzində 44 fərdi yaşayış evi tikilib istifadəyə verilmişdir ki, bunun da 28-i kənd yerindədir. Yaşayış evlərinin ümumi sahəsi 5399 kv/m, yaşayış sahəsi 2544 kv/m-dir. İstifadəyə verilmiş yaşayış evlərinin dəyəri 400 min manatdır. Rüb ərzində 3 mənzil özəlləşdirilmişdir. Özəlləşdirilən mənzillərin ümumi sahəsi 148 kv.metrdir. 2016-cı ilin I rübündə tikinti müəssisələri öz gücləri ilə 571 min manatlıq iş görmüşdür ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 171.3% təşkil edir.

## İSTEHLAK BAZARI

Rüb ərzində Qazax rayonunda 3 iri, 65 kiçik ticarət, xidmət müəssisəsi 200 ticarət yerinə malik kənd təsərrüfatı məhsulları bazarı və hüquqi şəxs yaratmadan fərdi sahibkarlıqla məşğul olan 2550 fiziki şəxs ticarət fəaliyyəti göstərmişdir. Rüb ərzində rayonun istehlak bazarında əhaliyə 4050 min manatlıq istehlak malları satılmış və pullu xidmət göstərilmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə pərakəndə əmtəə dövriyyəsinin fiziki həcm indeksi 104.2% olmuşdur. Əhaliyə göstərilən pullu xidmətlərin həcmi isə 103.8 % olmuşdur. Pərakəndə ticarətin quruluşu aşağıdakı kimidir:




Rüb ərzində Qazax rayonunda pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmi 34100 min manat olmuşdur. Pərakəndə əmtəə dövriyyəsinin 8.8 % hüquqi şəxslərin, 59,5% kənd təsərrüfatı bazarının, əşya və qarışıq mallar yarmarkasının, 31.7% hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan fiziki şəxslər tərəfindən yaranmışdır. Rüb ərzində rayon əhalisinin hər bir nəfəri tərəfindən ticarət şəbəkələrindən 360 manatlıq istehlak malları alınmışdır. Hər bir sakinə 63 manatlıq pullu xidmət göstərilmişdir. Hüquqi və fiziki şəxslər tərəfindən rayon əhalisinə 480 min manatlıq iaşə xidmətləri göstərilmişdir. İaşə xidmətlərinin həcmi keçən ilə nisbətən 5.2 % artmışdır. İaşə xidmətinin 34.7 min manatı kiçik müəssisələr tərəfindən, 445.3 min manatı isə fiziki şəxslər tərəfindən göstərilmişdir.

## NƏQLİYYAT

Rayonun iqtisadiyyatında nəqliyyatın rolu artmaqdadır. Rüb ərzində nəqliyyat müəssisələri və fiziki şəxslər tərəfindən əldə olunmuş göstəricilər qənaətbəxşdir. Rüb ərzində nəqliyyat sektorunda məhsul buraxılışı fiziki şəxslər üzrə 1377.9 min manat olmuşdur ki, bu da ümumi məhsul buraxılışının 4.5%-ni təşkil etmişdir. Keçən ilin müvafiq dövründə bu göstərici 1339.1 min manat olmuşdur. Rüb ərzində yük daşınmasının həcmi 396 min ton olmuş, bu da əvvəlki dövrlə müqayisədə 4.2% çoxdur. Rüb ərzində 3597 min nəfər sərnişin daşınmışdır. Bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 4.9 % çoxdur

## RABİTƏ

Rüb ərzində rabitə sektorunda məhsul buraxılışının faktiki qiymətlərlə həcmi 250.0 min manat olmuşdur. Rabitədən əldə edilmiş gəlirin 244.5 min manatı və ya 97.5 faizi rayon əhalisinə göstərilmiş xidmətlərin hesabına yaranmışdır. Araşdırılan dövrdə əldə edilmiş gəlirin 17.6 % şəhərlərarası və beynəlxalq rabitədən, 15.9% şəhər telefon rabitəsindən, 49.7% kənd telefon rabitəsindən, 16.8 % isə abunə haqqından əldə edilmişdir. Əhalidən əldə edilmiş gəlirin həcminin 16,4 % şəhərlərarası və beynəlxalq telefon rabitəsindən, 14.8 % şəhər telefon rabitəsindən, 54.7% kənd telefon rabitəsindən, 14.1 % abunə haqqından olmuşdur. Rüb ərzində poçt rabitəsindən 52 min manatlıq gəlir əldə olumuşdur ki, bunun da 45.7 min manatı əhali tərəfindən ödənilmiş xidmətin dəyəridir. Rüb ərzində 12620 sifarişli məktub və banderolların göndərişi həyata keçirilmişdir. Daxil olan sifarişli məktub və banderolların sayı isə 19760 ədəd olmuşdur. Poçt müəssisələri tərəfindən 195 ədəd poçt bağlaması göndərilmiş, 45 bağlama isə daxil olmuşdur.

## ƏMƏK BAZARI

2016-cı ilin I rübü ərzində rayonda 47.9 min nəfər iqtisadi fəal əhali olmuşdur. İqtisadi fəal əhalinin 47.2 min nəfəri iqtisadiyyatda məşğul olanlar, 703 nəfəri isə məşğulluq orqanlarında rəsmi qeydiyyatda olan işsizlərdir. Məşğul olan əhalinin 11500 nəfəri və yaxud 24.9 % muzdla işləyir. Muzdla işləyənlərin 3200 nəfəri maddi istehsal sahələrində, 8300 nəfəri isə xidmət sahələrində çalışır. Fəaliyyət növləri üzrə muzdla işləyən işçilərin 80.1% dövlət, 19.9 % qeyri-dövlət mülkiyyət növləri üzrə işləyir. İqtisadi fəaliyyət növlərinə uyğun olaraq muzdla işləyən işçilərin 5.0 % kənd təsərrüfatında, 5.9% sənayedə, 1.2% tikintidə, 2.9 % topdan və pərakəndə ticarətdə, 6.6% nəqliyyat və rabitədə, 1.0 % maliyyə vasitəçiliyyində, 5.9% dövlət idarəetməsi və məcburi sosial təminatda, 39.8% təhsildə, 20.2% səhiyyədə, 9.3% kommunal və sosial xidmətlərində, 2.2 % digər fəaliyyət sahələrində olmuşdur.

## YENİ İŞ YERLƏRİNİN AÇILMASI

Azərbaycan Respublikası "Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq rayonda yeni iş yerlərinin açılması ardıcıl olaraq davam edir. 2003-cü ildən 2015-ci ilin üçüncü rübünün sonunadək rayonda 9161-i daimi olmaqla 11359 yeni iş yei açılmışdır. 2015-ci il ərzində 753 yeni iş yeri açılmışdır ki, bunun da 384-ü daimi iş yeri, 493-ü isə müvəqqəti iş yeridir. 2016-cı ilin I rübü ərzində 703 yeni iş yeri açılmışdır. Bunun 653-ü daimi iş yeri, 50-si isə müvəqqəti iş yeridir.

**Faiq PAŞAYEV,**
**Statistika İdarəsinin rəisi**

## ALLAH RƏHMƏT ELƏSİN!

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov və Aparatın kollektivi rayon Prokuroru Əlirza Babayevə qardaşı

**BAHƏDDİN BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Qazax rayon prokurorunun müavini, I dərəcəli hüquqşünas Rəfael Həsənov və prokurorluğun kollektivi rayon Prokuroru Əlirza Babayevə qardaşı

**BAHƏDDİN BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Natiq Həsənov və şəxsi heyəti rayon Prokuroru Əlirza Babayevə qardaşı

**BAHƏDDİN BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

"Göyəzən" qəzetinin baş redaktoru Elçin İsmayıl rayon Prokuroru Əlirza Babayevə qardaşı

**BAHƏDDİN BABAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

## İTMİŞDİR

Nuruyev Cavid Saiq oğlunun adına verilmiş hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Baş redaktor: ELÇİN İSMAYIL

TƏSİSÇİ: QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN: QAZAX ŞƏHƏRİ, H.Z.TAĞIYEV KÜÇƏSİ 20 TELEFON: 5-02-00, (baş redaktor) 5-12-27 (şöbələr) MOB: (055) 621-03-53

KAPİTAL BANK BANK HESAB № AZ69AİİB33010019443660233136 VÖEN: 4200134061 KOD: 200361 QEYDİYYAT №442 TİRAJ: 3000

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir. Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, "SQ" mətbəəsində çap edilib. *Fotolar: Salmanındır.*